OLAYLAR
13 avqust 2015 № 143

Tarix boyu cəmiyyətin nizamlanıb tənzimlənməsində din xüsusi rol oynamışdır. Məhz buna görə də din dövlətlərin yaranıb meydana çıxmasında əsas ideologiyaya çevrilmiş və dövlətin idarə olunmasında uzun müddət aparıcı rol oynamışdır. Şübhəsiz ki, dövlətin idarə olunmasında işlək qayda-qanunlar dini qayda-qanundan barınmışdır.

# Dinin dövlətdə yeri



«Ruhlar kitabı»nın müəllifi Allan Kardek bu haqda belə demişdir:

- Bütün qanunlar ilahi qanunların mahiyyətindən doğmuşdur. Çünki Allah hər bir şeyin nizam verəni və yaradıcısıdır. Alim materiya, ruhani isə ruhu qanunları öyrənib, onu öz üzərinə tətbiq edir. Deməli, dövlətin idarə olunması qanunları materiya və ruhani qanunların toplusundan yaranmışdır. Və cəmiyyət inkişaf edib təkmilləşdikcə bu qanunlar da zaman-zaman dövrünə uyğun olaraq təkmilləşir.

Onu da qeyd etmək yerinə düşər ki, dinin dövlət işlərində aparıcı rol oynaması, xüsusən məhkəmə sistemini uzun müddət öz nəzarətinə götürməsi tarix boyu baş verən haqsız hökmlər və ədalətsiz qərarlar dini gözdən salmışdır. Misal üçün bizim indi həsəd apardığımız Avropada inkvizisiya dövründə milyonlarla adamlar məhv edilmişdir. Təkcə İran inkvizisiyasının başçısı Torkvemada (1420-1498) 10 min nəfərdən çox insanı tonqalda yandırmışdı. Əsası 1184-cü ildə papa III Lutsiyanın və alman imperatoru I Fridrix tərəfindən qoyulan inkvizisiya yalnız 1835-ci ildə papa inkvizisiya məhkəmələrinin fəaliyyətini dayandırması barədə sərəncam vermişdir. Beləliklə, Avropa ölkələri dövlətin cəza alətinə çevrilmiş xristian dinini tədricən dövlət işlərindən ayırdılar və əsrlər boyu haqsızlıqlara alət olmuş xristian dini özünə gəldi və mənəvi-əxlaqi dəyərlər toplusuna çevrildi. Çox keçmədi ki, xristian dini dünyaya öz təqdimatının incəliklərini işləyib hazırladı və bunun öhdəsindən bacarıqla gəldi. Çox təəssüf ki, biz bunu İslam dinində görmürük.

Demək olar ki, bütün dünyada tarix boyu din dövlətin idarə olunmasında mühüm rol oynamış və dövlətin məhkəmə sisteminin aparıcısına çevrilmişdi. Bütün müsəlman dünyasında dövlətin məhkəmə sistemi şəriət qayda-qanunlarına söykənmiş və təyin olunan qazilər məhkəmə sisteminə rəhbərlik etmişdilər. Şübhəsiz ki, məhkəmə sistemində baş verən əyri-üyrülük, qərəzçilik, qisasçılıq və rüşvət amili bir çox hökmlərin düzgün çıxarılmamasına səbəb olmuşdur. Belə ki, Nəimi, Nəsimi, Eynalqüzat, Miyanəci, Şihabəddin, Sührəverdi kimi görkəmli şəxsiyyətlər haqqında çıxarılan ədalətsiz hökmləri göstərə bilərik. Amma onu da qeyd etmək gərəkir ki, orta çağlardakı Avropa məhkəmələrindən müqayisəedilməz dərəcədə ədalətli olmuşdur. Bunun analoqu bizim hal-hazırda məhkəmələrlə Avropa ölkələrində olan məhkəmələrdir. Təbii ki, şəri məhkəmə sistemlərində baş verən haqsızlıqlar dinin adına yazılır və onun dəyərinə kölgə salır. Buna görə də dinin dövlətdən ayrılması ən düzgün addımdır.

Avropa ölkələri bunu etməklə xristian dinini haqsızlıq bataqlığından xilas etdilər. Əvəzində İslam dnini gözdən salmaq üçün bu missiyanı İslam ölkələrinə sırıdılar. Belə ki, onları sırf dini dövlət yaradıb İslam dininin təşəkkül tapdığı dövrün qayda-qanunları ilə idarə etməyə təhrik etdilər və dini qüvvələrin hakimiyyətə gəlməsi üçün əllərindən gələn bütün yardımları etməyə başladılar. Bu haqda geniş bilgi almaq istəyənlər 10-16 mart 2013-cü il «Türküstan qəzeti»nin №9(289) sayında dərc olunmuş «Nicat yolu varmı?» adlı yazını nəzərdən keçirə bilərlər.

Avropada insan azadlığına verilən dəyərlər ifrata vardığından orada xoşagəlməz meyllər daha da gücləndi. Xüsusən seksual azlıqların meydan sulaması, narkomaniya, alkoqolizmi qeyd etmək olar.

Hər şeydən öncə din xadimləri əməli saleh, xeyirxah və digərlərinə örnək olan ən təmiz, ədalətli insanlar olmalıdır. Dinin missiyası mənəvi-əxlaqi dəyərləri qorumaqdır. Buna görə də din xadimləri xalq kütləsinə dinin əsas mahiyyətini başa salmalı, xurafatdan uzaq olmalıdır. Bizdə din dövlətdən ayrı olsa da onun fəaliyyətini görə bilmirik.

**Ərhun**

**Yazı "Ortaq Dəyərlər" İctimai Birliyinin Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə həyata keçirdiyi layihə çərçivəsində çap olunur**